


# MÜBARİZ KEŞİKDƏ

Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir.

Heydər Əliyev

30 yanvar 2020-ci il
Cümə axşamı

№ 4 (3469)

www.mk.mia.gov.az

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏRİ




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda "SUEZ Group"un yeni baş icraçı direktoru Bertran Kamusla, Polşa Respublikasının Prezidenti Andjey Duda, Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa, "Equinor" şirkətinin baş icraçı direktoru Eldar Saetre, "Swiss Re" şirkətinin ictimaiyyətlə əlaqələr üzrə sədri Veronika Skotti ilə görüşüb.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev Davos Dünya İqtisadi Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında iştirak edib.

Dövlətimizin başçısı panelin moderatorunun suallarını cavablandırıb.

Həmin gün Prezident İlham Əliyev Davosda BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb.

Görüşdə TANAP layihəsinin artıq istifadəyə verildiyi, TAP-ın isə bu ilin axırınadək hazır olacağı qeyd edilib.

Söhbət zamanı "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənilməsinin növbəti mərhələsi üzrə yeni layihəyə dair müzakirələr aparılıb. Prezident İlham Əliyev bunun çox mühüm layihə olduğunu bildirib.

Dövlətimizin başçısı bu ilin fevralında Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının nazirlər səviyyəsində görüşünün keçiriləcəyini qeyd edib.

Robert Dadli BP-nin öz fəaliyyətində ətraf mühitin qorunmasına daha böyük əhəmiyyət verəcəyini deyib.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda Gürcüstanın Baş Naziri Giorgi Qaxariya, İsveçrə Konfederasiyasının Prezidenti xanım Simonetta Sommaruqa, "Procter and Gamble Europe" şirkətinin prezidenti Loik Tassel, İsveçrənin Montrö şəhərinin meri, Azərbaycan-İsveçrə Dostluq Qrupunun həmsədri Loran Verli ilə görüşü olub.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYANIN "ROSSİYA-24" TELEVİZİYA KANALINA MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Dünya İqtisadi Forumu çərçivəsində Davosda Rusiyanın "Rossiya-24" televiziya kanalına müsahibə verib. "Rossiya-1" və "Rossiya-24" kanalları dövlətimizin başçısının müsahibəsini yayımlayıb.

"Rossiya-24" televiziya kanalında yayımlanan müsahibəni təqdim edirik.

Aparıcı: "OPEC+" bu gün neftin ədalətli qiymətini müəyyənləşdirməyə kömək edən çoxtərəfli əməkdaşlığın uğurlu formatıdır. Neft bazarının iştirakçıları arasındakı sövdələşmə öz səmərəsini göstərdi. Onu uzatmaq gərəkdir. Bu fikirləri kanalımıza müsahibədə Davos Forumunun kuluarlarında Azərbaycan Prezidenti İlham Əliyev söyləyib.

***-Yaxın Şərqdə müşahidə olunan gərginlik nəzərə alınmaqla bu il neftin qiymətinin hansı dinamikasını gözləmək olar?***

-Proqnoz vermək çətindir. Düşünürəm ki, qiymətlərin bugünkü səviyyəsi həm istehsalçıları, həm də istehlakçıları qane edir. Azərbaycana gəldikdə, bu il bizim büdcəmizdə neftin bir barrelinin qiyməti 55 dollar nəzərdə tutulub. Lakin indi qiymət xeyli yüksəkdir. Buna görə də düşünürəm ki, əgər hər hansı forsmajor vəziyyət yaranmasa, qiymət 55-65 dollar diapazonunda qalacaq. Üstəlik, "OPEC+" formatı çox səmərəlidir və Azərbaycan bu formatın içində fəal iştirak edir. Biz öz üzərimizə götürdüyümüz öhdəliklərlə əlaqədar hasilatı azaldırıq və mahiyyət etibarilə bu gün OPEC-ə daxil olmayan ölkələr də özlərini OPEC üzvləri kimi aparırlar. Buna görə də "OPEC+" çoxtərəfli əməkdaşlığın olduqca uğurlu formatıdır və bizim fikrimizcə, mahiyyət etibarilə, bu gün neftin qiymətinin ədalətli olduğunu müəyyənləşdirib.

***-Sizin fikrinizcə, "OPEC+" sazişinin müddətini uzatmaq lazımdırmı?***

-Əlbəttə, bu məsələ ən yaxın vaxtlarda müzakirə ediləcək. Lakin hesab edirəm ki, konkret nəticələr gördüyümüzü nəzərə alaraq bunun müddətinin uzadılması, əlbəttə, məqsədəuyğundur. Çünki müddət uzadılmasa, bazarın necə reaksiya verəcəyini bilmirik, yenidən müxtəlif spekulyativ meyillər yarana bilər. Buna görə hesab edirəm ki, müddətin uzadılmasının əhəmiyyəti var.

***-Sizcə, bu gün dünyada çoxqütblülük əlamətləri varmı?***

-Şübhəsiz, bu gün dünya məhz çoxqütblü dünya kimi inkişaf edir. Bir neçə güc mərkəzi var. Əlbəttə, bizi narahat edən məsələlər var - regionumuzda gərginliyin artması. Lakin biz müsbət dinamikanı da görürük, əvvəllər bu cür sıx qarşılıqlı fəaliyyəti olmayan ölkələr bu gün demək olar ki, müttəfiqlər kimi hərəkət edir və regional sabitliyə böyük töhfə verirlər. Buna görə də çoxqütblü dünya artıq reallıqdır. Düşünürəm ki, bu meyillər getdikcə daha da möhkəmlənəcək. Bu, müsbət haldır, çünki bu, dünyada sabitliyə zəmanətdir.

***-Hər halda, dünyada ölkələrdən birinin daha çox birqütblü dünyaya meyil etməsi əlaməti yoxdurmu?***

-Bilirsiniz, iri ölkələrin həmişə öz hüdudlarından kənarda maraqları olur və hər ölkə özü üçün daha yaxşı şəraitə nail olmaq, öz təsir dairəsini genişləndirmək istəyir. Burada təzə heç nə yoxdur. Biz bunu əsrlərboyu müşahidə edirik, sadəcə, müxtəlif intensivlik dərəcəsi ilə. Buna görə məsələ bunda deyil, bugünkü dünya nizamının konstruksiyası, o cümlədən beynəlxalq münasibətlərin konstruksiyası çoxqütblülüyü nəzərdə tutur. BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin tərkibinə baxsaq, bu, artıq dünyanın çoxqütblülüyünün əksidir. Daimi üzvlərdən birinin razılığı olmadan heç bir qərar qəbul edilə bilməz. Buna görə də düşünürəm ki, ölkələr özləri üçün birqütblülüyü təmin etməyə çalışmamalı, əksinə, hamı üçün sərfəli olan əməkdaşlıq elementləri tapmalıdırlar.

***-Azərbaycan Belarus Respublikasını neftlə təchiz edəcəkmi?***

-Bilmirəm. Bu sual mənə deyil, yəqin ki, Neft Şirkətinə aiddir. Bir neçə il bundan əvvəl biz Belarusu neftlə təchiz edirdik və sonradan Belarus tərəfinin təşəbbüsü ilə bu proses dayandırılmışdır. Əgər yenidən belə ehtiyac yaransa, Azərbaycan Dövlət Neft Şirkəti bu məsələni nəzərdən keçirəcək. Bu gün "SOCAR Traiding" şirkəti ən iri treydinq şirkətlərindən biridir və onun satdığı neftin çox hissəsi Azərbaycanda hasil edilməyən neftdir. Buna görə, sırf texniki baxımdan Azərbaycan şirkəti nefti istənilən yerə tədarük edə bilər. Lakin qiymət məsələsi, logistika məsələsi, kontrakt öhdəlikləri ilə bağlı məsələ - bütün bunlar müvafiq şirkətlər arasında müzakirə edilməlidir.

***-Çox sağ olun.***

-Sağ olun.

## DAXİLİ İŞLƏR NAZİRLİYİ VƏ BAŞ PROKURORLUĞUN MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

Son günlər bəzi kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə ölkəmizdəki sabitliyin pozulmasında maraqlı olan şəxslər tərəfindən qəsdən sağlamlığa ağır zərər vurma cinayətinə görə azadlıqdan məhrum edilmiş Salyan rayon sakini Aytəkin Abıyevanın guya polis əməkdaşı Həmzə Əzizov tərəfindən zorakılığa məruz qalması və özünü Aytəkin Abıyevanın müdafiəçisi kimi göstərmək istəyən həmin rayonun sakini Zamin Salayevə (Əlizamin Salayev) işgəncə verilməsi barədə məlumatlar yayılır.

Əslində heç bir əsası olmayan, reallıqdan tamamilə uzaq, vətəndaşlarda dövlət qurumlarına inamsızlıq yaratmaq niyyəti güdən və qərəzli şəkildə uydurulan bu cür məlumatlarla bağlı bildirilir ki, 2019-cu il avqust ayının 8-də qohumu ilə rəsmi nikaha daxil olub ailə həyatı qurmuş Aytəkin Abıyeva əri ilə birgə Bakı şəhərinə köçmüş və bundan 10 gün sonra adı istintaqa məlum olan keçmiş sevgilisinə zəng edib onunla Salyan şəhərinə gəlmiş və 4 gün müddətində müxtəlif ünvanlarda qalmışlar.

Həyat yoldaşının polisə müraciəti əsasında avqustun 22-də tapılıb ailəsinə qaytarılan, daha sonra valideynlərinin yanına qayıdan Aytəkin Abıyeva yeni tanış olduğu başqa bir şəxslə telefon əlaqəsi saxladığı üçün anası tərəfindən tənbeh edildiyindən sərbəst yaşamaq qərarına gələrək 2019-cu il sentyabrın 10-da xəbər vermədən evdən getmişdir. Aytəkin Abıyevanın itkin düşməsi barədə ailə üzvlərinin Daxili İşlər Nazirliyinin «102» Xidmətinə müraciəti əsasında həmin gün o, polis əməkdaşları tərəfindən tapılıb valideynlərinə təhvil verilmişdir.

Bir neçə gün evlərində qalan Aytəkin Abıyeva 2019-cu il sentyabrın 16-da yenidən evdən qaçıb əvvəldən yaxın münasibətdə olduğu digər tanışı ilə görüşmüşdür.

Ertəsi gün onun itkin düşməsi barədə valideynləri yenidən Salyan Rayon Polis Şöbəsinə müraciət etmiş və müvafiq araşdırmanın aparılması baş təhqiqatçı Həmzə Əzizova tapşırılmışdır. Həyata keçirilmiş axtarış tədbirləri ilə Aytəkin Abıyevanın olduğu yer müəyyən edilmiş və o, saxlanılıb qardaşına təhvil verilərkən buna etiraz olaraq üzərindəki bıçaqla Həmzə Əzizova həyat üçün təhlükəli olan ağır xəsarət yetirmişdir.

Fakt üzrə Salyan rayon prokurorluğunda Cinayət Məcəlləsinin 29 və 120.2.3-cü (zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını öldürməyə cəhd) maddələri ilə cinayət işi başlanılmış və Aytəkin Abıyeva məhkəmənin qərarı ilə şübhəli şəxs qismində tutulmuşdur.

Müdafiəçisinin iştirakı ilə verdiyi ifadələrdə, Aytəkin Abıyeva ittiham üzrə özünü təqsirli bilmiş, cinayəti törətdiyi günədək Həmzə Əzizovla heç bir münasibətinin olmadığını və hər hansı polis əməkdaşı tərəfindən ona qarşı qanunsuz hərəkətə yol verilmədiyini göstərmişdir.

Aytəkin Abıyevanın həmin cinayət əməlini törətməsi, özünün səmimi ifadələri ilə yanaşı istintaq zamanı toplanmış, bir-birini tamamilə təkzibedilməz sübutlarla, o cümlədən hadisəni görən ailə üzvlərinin və digər çoxsaylı şahidlərin ifadələri, mobil telefon danışıqları barədə məlumatlar və ekspertiza rəyləri ilə tam təsdiqlənmişdir.

Lənkəran Ağır Cinayətlər məhkəməsinin hökmü ilə Aytəkin Abıyevanın əməli Cinayət Məcəlləsinin 126.2.2-ci (qəsdən sağlamlığa ağır zərər vurma) maddəsinə tövsif edilmiş və o, bu cinayətdə təqsirli bilinərək 7 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişdir.

Qeyd olunmalıdır ki, özünü Aytəkin Abıyevanın müdafiəçisi kimi göstərməyə cəhd edən Zamin Salayev, xəbər verildiyi kimi, 2020-ci il yanvarın 13-də Bakı şəhərində ictimai qaydanı pozan hərəkətlərə yol verdiyinə və bununla əlaqədar polis işçilərinin qanuni tələblərinə qəsdən tabe olmadığına görə məhkəmənin qərarı ilə inzibati qaydada həbs edilmişdir.

Saxlanılan zaman bütün prosessual hüquqları təmin edilmiş Zamin Salayev vəkili və ailə üzvləri ilə görüşmüş və müvəqqəti saxlama yerində Ombudsman Aparatının əməkdaşları ona baş çəkmişlər.

Eyni zamanda, Daxili İşlər Nazirliyi tərəfindən aparılan xidməti yoxlama prosesində Zamin Salayev, polis əməkdaşları tərəfindən hər hansı işgəncəyə və zorakılığa məruz qalmadığını bildirmişdir. Bu xüsusat Nazirliyin təşəbbüsü ilə Zamin Salayevin DİN-in Hospitalında keçirilmiş tibbi müayinəsi ilə təsdiqlənmişdir.

Törətdiyi cinayətlərə görə əvvəllər də üç dəfə məhkumluq həyatı yaşamış, spirtli içki aludəçisi olan Zamin Salayevin Aytəkin Abıyevanın təzyiqə məruz qalması və hətta zorlanması barədə şərəf və ləyaqəti alçaldan böhtanlar yayması da qərəzdən başqa bir şey deyil və onun neqativ həyat təcrübəsinin və dünyagörüşünün təzahürüdür.

*27 yanvar 2020-ci il*

# BİRGƏ TƏDBİRLƏR KEÇİRİLİB

**Fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərin yüksək səviyyədə təşkil olunması, azad və ədalətli keçirilməsi, eləcə də müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi məqsədilə Mərkəzi Seçki Komissiyası və Daxili İşlər Nazirliyinin birgə təşkilatçılığı ilə Gəncə, Şəki və Şirvan şəhərlərində "Polisin xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsi" mövzusunda tədbirlər keçirilib.**

Yanvarın 25-də Gəncədə, 27-də Şəkidə, 29-da isə Şirvanda keçirilən regional seminarlarda Mərkəzi Seçki Komissiyasının və Daxili İşlər Nazirliyinin nümayəndələri, dairə seçki komissiyalarının sədrləri, şəhər və rayon polis orqanlarının əməkdaşları iştirak ediblər.




Bildirilib ki, polisin səsvermə prosesində həm səsverməyədək, həm də seçki günü qanunvericiliklə təsbit edilmiş vəzifələri mövcuddur. Səsvermə günü hər hansı bir səsvermə otağında asayişin pozulması ilə əlaqədar müəyyən problemlər yaranarsa, səsvermə otağından 100 metr aralıda öz xidməti vəzifəsini yerinə yetirən polis əməkdaşı məntəqə seçki komissiyası sədrinin dəvəti ilə səsvermə otağına daxil olur və ictimai asayişin bərpası ilə bağlı fəaliyyətini həyata keçirir. Polis əməkdaşı səsvermə otağına daxil olduqda səsvermə prosesi dayandırılır və ictimai asayiş bərpa olunduqdan sonra isə qanunla müəyyən edilmiş qaydada səsvermə prosesi davam etdirilir.

Bu tədbirlərdə DİN Baş İctimai Təhlükəsizlik İdarəsinin nümayəndəsi Hamlet Hümbətəliyev "Seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün ictimai qaydanın təmin edilməsi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələri, seçkidən sonrakı dövrdə seçki bülletenlərinin və digər seçki sənədlərinin dairə və Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı təhlükəsizlik tədbirlərinin görülməsi" mövzusunda çıxış edib. Bildirilib ki, Milli Məclisə seçkilərlə əlaqədar asayişin mühafizəsi, ictimai qaydaların qorunması və ictimai təhlükəsizliyin təmin olunması ilə bağlı Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən xüsusi tədbirlər planı təsdiq edilib və icrası nəzarətə götürülüb. Seçki kampaniyasının təbliğat-təşviqat mərhələsində, eləcə də səsvermə günü seçicilərin, beynəlxalq müşahidəçilərin və seçki prosesində iştirak edən digər subyektlərin təhlükəsizliyinin təmin edilməsi, hüquqlarının qorunması, polis əməkdaşlarının vətəndaşlarla ünsiyyətdə etik davranış qaydalarına ciddi riayət etmələri və digər bu kimi məsələlər nazirliyin rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır.

Diqqətə çatdırılıb ki, seçki kampaniyası ilə əlaqədar dairə və məntəqə seçki komissiyaları nümayəndələrinin polisin fəaliyyəti ilə bağlı qaldırdıqları bütün məsələlər operativ qaydada həll olunacaq.

Seçki bülletenləri saxlanılan dairə və seçki məntəqələrinin mühafizəsinin təşkil edilməsi, səsvermədən əvvəl bülletenlərin Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına və oradan seçki məntəqələrinə, seçki qurtardıqdan sonra isə seçki məntəqələrindən dairə seçki komissiyalarına və oradan Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı mühafizənin təmin edilməsi üçün bütün zəruri tədbirlər görüləcək.

Sonda seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# QIŞDA DA BAHAR NƏFƏSİ DUYULUR NİZAMİ YURDUNDA...

**Tarixlərə şahidlik edən Gəncənin bugünkü simasını qədimliklə müasirliyin vəhdəti təşkil edir. Bu səbəbdən də yerli və xarici turistlərin Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə maraqları daha da artmaqdadır. Tarixi adı ilə yanaşı həm də dünya mədəniyyəti xəritəsində Nizami yurdu adı ilə tanınan şəhərdə aparılan genişmiqyaslı tikinti-quruculuq işləri yeni muzeylərin yaradılması ilə də müşayiət olunur. Qədim mülklərlə yanaşı, indi burada Qala Qapıları-Arxeologiya və Etnoqrafiya Muzeyi Abidə Kompleksi kimi yeni tikililər də var. Şəhərin girəcəyində ucaldılmış bu abidə indi hər bir qonaqda heyranlıq yaradır. Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası ölkəmizdə digər sahələrlə yanaşı, abadlıq və quruculuq işlərinin də geniş vüsət almasına səbəb olub. Bölgələrdə yeni obyektlər istifadəyə verilib, əhalinin rifahının yaxşılaşdırılmasına və sosial problemlərinin həllinə xidmət edən infrastruktur sahələri yaradılıb.**



Özümüz də şahid olduq ki, AXC-Musavat hakimiyyəti dövründə vətəndaş qarşıdurmasının "poliqonuna" çevrilən, başından duman çəkilməyən şəhər bu gün rahat, firavan həyatını yaşayır. Paytaxtda və digər bölgələrdə olduğu kimi burada da gün ərzində parklardan, xiyabanlardan, istirahət məkanlarından əl-ayaq çəkilmir, insanlar rahat, dinc istirahət edir.

**Gəncə şəhər Baş Polis idarəsinin rəisi, polis polkovniki Əkbər İsmayılovla** da söhbətimiz bu barədə oldu. Həmsöhbətim bildirdi ki, respublikamızda ictimai asayişin, qanunçuluğun və hüquq qaydalarının etibarlı təmini, vətəndaşların konstitusion mənafelərinin yüksək səviyyədə qorunması, kriminogen durumun sabitliyi Azərbaycanın ötən müddətdə qazandığı ən mühüm nailiyyətlər sırasındadır.

Şəhər BPİ-nin şəxsi heyəti xidməti ərazidə ötən il ictimai asayiş və təhlükəsizliyin qorunması üçün vacib tədbirləri keçiriblər. Cinayətlərin qarşısının alınması, açılması, istintaqı, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilmiş tədbirlər müsbət nəticə verib, kriminogen durum daim nəzarətdə saxlanılıb. Dövlət əhəmiyyətli və digər kütləvi tədbirlər zamanı asayiş və təhlükəsizlik qorunub, əməkdaşlar tərəfindən üzərlərinə düşən vəzifələr layiqincə icra olunub.

O bildirdi ki, ötən il Gəncə şəhərinin inzibati ərazisində 722 cinayət qeydə alınıb, onlardan 666-nın açılması təmin edilib, cinayətlərin açılması 85,6 faiz təmin olunub. Qeydə alınmış ağır və xüsusilə ağır cinayətlər 94,6, az ağır 81,1, böyük ictimai təhlükə törətməyən 90,9, şəxsiyyət əleyhinə olan 97, mülkiyyət əleyhinə olan 75,4, ictimai təhlükəsizlik əleyhinə olan 92 faiz açılıb.

2019-cu ildə keçmiş illərdən bağlı qalmış 20 cinayətin açılması təmin edilib, 73 nəfərdən ibarət 30 cinayətkar qrup tərəfindən törədilmiş 104 cinayətin üstü açılıb.

Axtarışda olan 274 nəfər təqsirləndirilən şəxsdən 213 nəfər (24-ü keçmiş illərdən) tutularaq istintaq orqanına təhvil verilib. Eyni zamanda ağır və xüsusilə ağır maddələrlə axtarılan 44 nəfərin tutulması təmin olunub. İtkin düşmüş 34 nəfərdən 29-nun yeri müəyyən edilib.

Qanunsuz saxlanılan 3 "Makarov", 1 baraban tipli, 1 kustar üsulla hazırlanmış tapançalar, 2 lülesi kəsilmiş ov tüfəngi və xeyli sayda güllə götürülüb.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində keçirilmiş tədbirlərlə 72 cinayət müəyyən edilib, onlardan 23 satış, 48 saxlama, 1 fakt isə kultivasiyası ilə bağlı olub. Ümumilikdə 36 kiloqramdan çox narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb.

Polis polkovniki Əkbər İsmayılov bildirdi ki, vətəndaşların məmnunluğunun təmini üçün vaxtaşırı sakinlərin qəbulu, problemlərinin dinlənilməsi keçirilib, narkomaniya, erkən nikah və dini radikalizm mövzusunda məktəblilər və gənclərlə görüşlər təşkil olunub. Polisin maddi-texniki bazasının gücləndirilməsi də sabitliyin, ictimai asayişin, hüquq qaydasının daha da etibarlı təmininə əlverişli şərait yaradır. Çalışacağıq ki, bundan sonra da bizə etibar edilən vəzifəni layiqincə yerinə yetirək.

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

# POLİSƏ İNAM VƏ ETİBAR DAHA DA ARTIB

Azərbaycan polis xidmətlərinin etibarlılığına görə 141 ölkə arasında 30-cu yerdədir. Davos Ümumdünya İqtisadi Forumunun qlobal rəqabətlilik hesabatına əsasən, 141 ölkə arasında Azərbaycan son 3 ildə "Polis xidmətlərinin etibarlılığı" indikatoru üzrə 45 pillə irəliləyərək 30-cu yeri tutub.

Hesabata əsasən, Azərbaycan "Təhlükəsizlik" indikatoru üzrə 18 pillə irəliləyərək 22-ci, eləcə də "Mütəşəkkil cinayətkarlıqla mübarizənin səviyyəsi" indikatoru üzrə 25 pillə irəliləyərək 18-ci mövqedə qərarlaşıb.

*Natiq Cavadov,*
*polis mayoru*



# POLİSLƏR KÖMƏYƏ YETİŞDİ

Gözəl təbiəti olan Quba rayonu hər zaman turistləri özünə cəlb edir. Qarın yağması qonaqların sayının artmasına səbəb olur. Rayon Polis Şöbəsinin əməkdaşları isə gələn qonaqların çox olması ilə əlaqədar ərazidə operativ xidmət təşkil edir, turistlərin qarşılaşacağı hər hansı bir çətinlik və ya problemlər olduqda öz köməkliklərini göstərirlər.

Fotoda: Azərbaycana qonaq gəlmiş əcnəbi vətəndaş məşhur Qəçrəş meşəsi ərazisində hərəkət edən zaman nəqliyyat vasitəsinin təkəri deşilib və qarlı havada yolda köməksiz qalıb. Ərazidə xidmət aparan RPŞ-nin PPXB-in əməkdaşları turistə məxsus nəqliyyat vasitəsində yaranmış nasazlığı aradan qaldıraraq ona köməklik göstəriblər.

*Nizam Həmidov,*
*polis baş leytenantı*

# MƏKTUB GƏLİB

Polis-vətəndaş münasibətlərinin daha da möhkəmləndirilməsi, vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılması daxili işlər orqanları əməkdaşlarının xidməti fəaliyyətinin əsas istiqamətləridir.

Hər gün redaksiyamıza ayrı-ayrı vətəndaşlardan çoxsaylı təşəkkür məktubları daxil olur. Onlardan bir neçəsi ilə sizi də tanış edirik.

**Sumqayıt şəhər sakini, müharibə əlili Nəcəf Cəfərli** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda yazır: "Səhhətimdə ciddi problemlər var idi. DİN-in A.Heydərov adına Respublika Hospitalına müraciət etdim. Orada rəhbərliyin və tibbi personalın düzgün müalicəsi, göstərilən diqqət və qayğı məni sağlamlığıma qovuşdurdu. Bir söz də deyim ki, peşəkar həkimlərin hər gün, hər



saat xəstələrə baş çəkməsi, gün ərzində müayinə və müalicələri ilə maraqlanmaları, dərmanlarla təmin edilməyimiz bizlərdə böyük məmnunluq yaradır".

**Bakı şəhər sakinləri Mətanət Əbilova, Bəxtiyar Usubov və Mingəçevir şəhər sakini Abdüləli Cəfərov** müraciətlərinə polisin çevik reaksiya verməsini vətəndaş hüquqlarına verilən ən böyük dəyər kimi qiymətləndirir və onlara dəyən ziyanın ödənilməsində göstərdikləri köməyə görə daxili işlər orqanları əməkdaşlarına minnətdarlıqlarını yazırlar.

**Rusiya Federasiyasının vətəndaşı Yana Ryabçikova** ölkəmizdə fəaliyyət göstərən internet saytlarından birinin əməkdaşları tərəfindən dələduzluğa məruz qalması barədə Azərbaycan Daxili İşlər Nazirliyinə müraciətinin müsbət həll olunduğunu bildirir. O, müvafiq araşdırmaların aparılaraq, təqsirləndirilən şəxslər barədə tədbirlər görüldüyünə, ona dəymiş maddi zərərin ödətdirilməsinə görə DİN rəhbərliyinə minnətdarlığını bildirir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# ŞAGİRDLƏRƏ DƏYƏRLİ BİLGİLƏR VERİLDİ

**Siyəzən RPŞ-nin təşkilatçılığı ilə 5 saylı tam orta məktəbdə "Narkomaniyaya və dini radikalizmə qarşı mübarizə" mövzusunda görüş keçirilib. Tədbirdə Rayon İcra Hakimiyyətinin, Gənclər və İdman Nazirliyinin və Təhsil şöbəsinin nümayəndələri, eləcə də məktəbin pedaqoji kollektivi və yuxarı sinif şagirdləri iştirak ediblər.**

Görüşdə çıxış edən **RPŞ-nin rəisi, polis polkovniki Valik Vəlimətov** əsrin bəlasına çevrilən narkotiklərin səbəb olduğu qlobal faciələrdən söhbət açıb. Rəis bildirib ki, narkotik aludəçisi olan şəxslər onun insan orqanizminə vurduğu zərərlərdən qurtula bilmir, fiziki və psixoloji cəhətdən həmin maddələrin təsiri altına düşürlər. Vaxt keçdikcə isə bu maddələr istifadəçilərin həyatlarında sağalmaz izlər buraxır, bütünlüklə onların gələcəklərini məhv edir. Buna görə də hər bir şəxs həyatında qarşılaşa biləcəyi bu cür bəlalardan kənar gəzməli, ömrünü sağlam və xoşbəxt olaraq yaşamalı, pis vərdişlərlə məşğul olan şəxslərdən isə uzaq durmalıdırlar.

Daha sonra çıxış edən polis zabitləri və digər dövlət qurumlarının nümayəndələri tədbir iştirakçılarına dini radikalizm və erkən nikah mövzularında geniş məlumatlar veriblər.

*****

**Gəncə şəhər Baş Polis İdarəsinin Nizami Rayon Polis İdarəsinin təşkilatçılığı ilə şəhərin 5 saylı tam orta məktəbində "Narkomanlığın cəmiyyətə və insanların sağlamlığına zərərli təsirləri", "Erkən nikah və onun fəsadları", "Dini radikalizmə qarşı mübarizə" mövzularında məktəblilərlə görüş keçirilib.Tədbirdə ictimaiyyət nümayəndələri, eləcə də məktəbin müəllim və şagird kollektivi iştirak edib.**

**RPİ-nin rəisi, polis polkovniki Samir Həsənov** narkomaniyanın fəsadlarından, sağlam həyat tərzi istiqamətində maarifləndirmənin vacibliyindən danışaraq bildirib ki, narkomaniya ilə mübarizə uzunmüddətli, çoxşaxəli, geniş maliyyə vəsaiti tələb edən dinamik bir prosesdir. -"Narkomanlıq narkotik vasitələrin təkrarlanan istifadəsi nəticəsində yaranan xəstəlikdir. O gənclər və yeniyetmələr üçün çox təhlükəli olmaqla tez inkişaf edərək orqanizmin fiziki izhalına və mənəvi geriləməsinə səbəb olur. Qədinlarda narkotiklərdən meydana gələn asılılıq kişilərdən daha tez formalaşır. Uzun müddətli istifadə immun sistemi və psixikanı çökdürməklə bütün daxili orqanların məhvinə gətirib çıxarır, istifadə edən şəxsi ömürlük əlilə çevirir. Narkomanların əksəriyyəti müxtəlif sağalmaz xəstəliklərə yoluxurlar.

Daha sonra dini radikalizmə qarşı mübarizə tədbirlərindən söz açan S.Həsənov bildirib ki, Azərbaycan Respublikası həmişə tolerant ölkə kimi tanınıb. "Biz həmişə xalq, millət kimi başqa xalqlara, dinlərə hörmət göstərmişik. Lakin bəzi ölkələrdə dini radikalizm və ekstremizm elementlərinin güclənməsi təhlükə mənbəyi kimi bizi də narahat edir. Ona görə də mövcud ənənələrimizi yaşatmaq, milli birliyimizi möhkəmləndirmək üçün təhsil almaq, elmi biliklərə yiyələnmək, bu və ya digər məsələyə yanaşmada elmə üstünlük verməklə yanaşı, milli-dini dəyərlərə əsaslanmaq vacibdir".

İdarə rəisi erkən qurulan ailələrdə sonradan yaşanan faciələrdən bəhs edib. Belə halların aradan qaldırılması üçün valideynlərin də mövzuya daha həssas yanaşmalarının vacib olduğunu bildirib.

Sonda məktəbliləri maraqlandıran suallar cavablandırılıb.

# ELAN

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, nazirliyin müvafiq qurumlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaq.

Ali təhsilli və kompüter avadanlıqları ilə işləmək qabiliyyətinə malik vətəndaşlara üstünlük veriləcək.

İştirak etmək istəyən şəxslər 2020-ci ilin yanvar ayının 21-dən fevral ayının 21-dək **mia.gov.az./?/az/content/29779/** ünvanda yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-590-94-12; (012)-590-93-45; (012)-590-92-37; (012)-590-97-52.**

***Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi***

## DAXİLİ İŞLƏR ORQANLARI ƏMƏKDAŞLARININ NƏZƏRİNƏ! 2020/2021-ci TƏDRİS İLİ ÜÇÜN DİN-in POLİS AKADEMİYASININ MAGİSTRATURASINA NAMİZƏDLƏRİN QƏBULU ELANI

Azərbaycan Respublikası DİN-in Polis Akademiyası magistraturaya 2 illik dövlət hesabına əyani təhsil üzrə hüquqşünaslıq ixtisasının "Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası" ixtisaslaşması üzrə qəbul elan edir.

DİN-in Polis Akademiyasının magistraturasına qəbula namizədlər daxili işlər orqanlarında orta və böyük rəis heyəti vəzifələrində xidmət edən, ali hüquq təhsilli, fiziki cəhətdən sağlam və hazırlıqlı, elmi-tədqiqat və elmi-pedaqoji fəaliyyətə həvəsi olan əməkdaşlar sırasından seçilir.

Seçim şərtlərinə uyğun gələn və təhsil almaq istəyən əməkdaş, sənədlərin qəbulu üçün müəyyən olunmuş müddətdə orqan rəisi (nizadiri) vasitəsilə Azərbaycan Respublikasının Daxili İşlər nazirinə raportla müraciət edir. Razılıq verildikdən sonra müvafiq sənədlər "Polis Akademiyasının Magistraturasına Qəbul Qaydaları"na uyğun hazırlanıb DİN-in Baş Kadrlar İdarəsinə göndərilməlidir.

Namizədlərin seçimi və müsahibəsi DİN-in Baş Kadrlar İdarəsində yaradılan komissiyada həyata keçirilir və nəticələri müvafiq qaydada protokollaşdırılır.

Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi üzrə namizədlərin seçimi və sənədlərinin hazırlanması "Polis Akademiyasının Magistraturasına Qəbul Qaydaları"nın tələblərinə uyğun olaraq həmin orqanın müvafiq qurumları və komissiyası tərəfindən təşkil edilir. Namizədlərin sənədləri DİN-in Baş Kadrlar İdarəsinə təqdim olunur.

Müsahibə daxili işlər orqanlarının əməkdaşının xidmət etdiyi struktur qurumun fəaliyyətini tənzimləyən qanunvericiliyin və digər normativ-hüquqi aktların tələbləri üzrə keçirilir.

Komissiyanın rəyi həmin komissiyanın sədri tərəfindən təsdiqlənərək əməkdaşın şəxsi və ya tədris işinə əlavə olunur. Namizədlərin qəbul imtahanlarına buraxılması barədə rəy tərtib olunur.

Magistraturaya qəbul imtahanları Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçiriləcək. İmtahanların məzmunu və forması, davametmə müddəti, keçiriləcəyi yer və günlər Mərkəz tərəfindən müəyyən edilir. Namizədlər bu məqsədlə Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

**Daha ətraflı məlumatı DİN-in Polis Akademiyasının - (012) 454-12-78; 454-13-85 və ya Baş Kadrlar İdarəsinin - (012) 590-98-16, 18-16 (daxili) nömrəli telefonları vasitəsi ilə ala bilərsiniz.**

**Bəzən insan öz qardaşına, bacısına, ömür-gün yoldaşına, hətta övladına belə demədiyini həyatın çətin sınaqlarından birgə çıxdığı, bağrına basdığı, çörək kəsdiyi dostuna deyir, sirrini ona açır. Məhz buna görə də "Dost qazanmaq üçün bir ömür də yaşamalısan" deyimi əbəs yerə deyilməyib.**

"Xidməti vəzifəsini yerinə yetirərkən..." adlı ilk kitabı ilə oxucuların rəğbətini qazanmış Şəxsi Heyətlə İş İdarəsinin rəisi, polis polkovniki Rahib Qarayevin növbəti kitabı daxili işlər orqanlarında uzun illər xidmət etmiş, mərhum polis polkovniki Şükür Mehdiyevə həsr olunub.




kimi suallara bu kitabı oxuduqdan sonra cavab tapacaq və "Dost yolunda boran olar, qar olar" fikrinin dərinliyini anlayacaqlar.

Kitab DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinə bilavasitə tabe olan Mətbəədə çapdan çıxıb. Ön sözü şair-tədqiqatçı, filologiya üzrə fəlsəfə doktoru,

## XATİRƏLƏR DİLƏ GƏLDİ...

"Ötən ilin son gecəsi-9 fevral" kitabında illərin və nəsillərin sınağından çıxmış dost sevgisini, etibarını qazanmağın asan olmadığını ustalıqla qələmə alan Rahib Qarayevin dost itkisinə də yanaşması insanı düşündürür və təsirləndirir. Publisistik düşüncələrin xronologiya ilə vəhdət təşkil etdiyi kitabda Vətəninə, dövlətinə sadiq ömür yaşayan Azərbaycan Polisinin bədii portreti gözlərimiz önündə canlanır. Hadisələri oxuduqca xəyalən həmin dövrə gedib, müəllifin obrazını yaratdığı, 33 il bir sırada addımladığı və daha yaxından tanıdığı insanın fədakarlığının, Vətən və xalq sevgisinin şahidi oluruq.

İnanırıq ki, həyatın qoynuna yenicə atılan gənclər əsl dostu necə tanımalı, necə qazanmalı

Əməkdar jurnalist Adil Cəmil yazıb. Redaktoru, hüquq elmləri doktoru, istefada olan polis polkovniki Yəhya Əliyevdir.

Yeri gəlmişkən, kitabın rus dilinə tərcüməçisi Şəxsi Heyətlə İş İdarəsinin əməkdaşı, polis polkovnik-leytenantı Gülağa Feyzullayevdir.

***Hafiz Təmirov, polis polkovnik-leytenantı***

## YÜKSƏK ETİMADA LAYİQLİ XİDMƏT

**Ölkəmizin siyasi və iqtisadi gücü artdıqca ayrı-ayrı dövlət qurumlarının da fəaliyyəti təkmilləşir, müsbət dəyişikliklər durmadan artır, inkişaf edir. Bu müstəvidə daxili işlər orqanlarında aparılan islahatlar, maddi-texniki təminatın günü-gündən yenilənməsi, əməkdaşların sosial rifahının yüksəldilməsi daim ölkə və DİN rəhbərliyinin diqqətindədir.**




DİN Baş Mühafizə İdarəsinin hissələri də bu inkişafdan öz bəhrəsini almaqdadır və bu mövzuda zaman-zaman qəzetimizin səhifələrində, eləcə də dövrü mətbuatda müxtəlif yazılar verilib, teleproqramlar hazırlanıb, videoçarxlar çəkilib.

Polis tərəfindən mühafizəyə götürülmüş obyektlərin etibarlı qorunması yuxarıda sadalananların bariz nümunəsidir. Ən son texniki vasitələrlə təmin olunmuş Baş Mühafizə İdarəsinin KMMM mərkəzinə ötürülmüş siqnallara əməkdaşlar tərəfindən vaxtında və qətiyyətlə reaksiya verilir, şəxs və dövlət əmlakına, vətəndaşlara dəyə biləcək hər hansı maddi ziyanın qarşısı vaxtında alınır.

Qərb bölgəsinə bu dəfəki ezamiyyətim zamanı qurumun Gəncə şəhərində yerləşən Regional Mühafizə İdarəsində oldum. Gördüyüm mənzərə əvvəlkindən tam fərqli idi.

**İdarənin rəisi, polis polkovnik-leytenantı Seymur Sadıqovla** söhbətimizə də elə aparılan təmir-bərpa işlərindən başladıq. Öyrəndik ki, qısa müddət ərzində xeyli iş görülüb. Belə ki, əməkdaşların normal iş şəraitinin yaradılması məqsədi ilə inzibati bina və həyətyanı sahədə əsaslı təmir işləri aparılıb, Növbətçi hissə, silah və istirahət otaqları, həmçinin müasir avadanlıqlarla təchiz olunmuş 80 nəfərlik müşavirə zalı əsaslı təmir olunub. İdarənin balansında nasaz vəziyyətdə olan 9 avtonəqliyyat vasitəsi də əsaslı təmirdən sonra istifadəyə verilib.

Xidməti ərazi Gəncə şəhərini və Samux rayonunu əhatə edir. Qeyd edildi ki, Mərkəzləşdirilmiş Mühafizənin inkişaf etdirilməsi, obyektlərdə və mənzillərdə siqnalizasiya sistemləri quraşdırılmaqla mühafizəyə cəlb edilməsi ilə bağlı mövcud olan nöqsan və çatışmazlıqlar tədricən aradan qaldırılıb və həyata keçirilən tədbirlər nəticəsində verilmiş tapşırıqlar yerinə yetirilib. Nəticə ürəkaçandır. Bu ilin əvvəlindən Gəncə şəhərində fəaliyyət göstərən Mərkəzləşdirilmiş Mühafizə Məntəqəsinə vasitəsiylə 422 obyekt və 162 mənzil qoşulub ki, onların ümumi sayı ilin əvvəli ilə müqayisədə 40 vahid artıb. Əlavə olaraq bu sistem vasitəsilə 60 məktəbəqədər təhsil müəssisəsində xidmət göstərilir.



Ərazi polis orqanları ilə fəaliyyətimizin genişləndirilməsi və birgə təlimatların keçirilməsi nəticəsində həmin orqanlar tərəfindən toplanmış 69 ərizə üzrə 27 obyekt və 42 mənzil mühafizəyə qəbul edilib, siqnalizasiya sistemlərinin köməyi ilə qorunan 2 obyektdə oğurluğun qarşısı alınıb, digər cinayətə görə 7, axtarışda olan 80, ictimai qaydanı pozduğuna görə 25 nəfər saxlanılaraq ərazi polis orqanlarına təhvil verilib.

Xidmətin təşkili və aparılmasına nəzarət gücləndirilmişdir. Eyni zamanda Gəncə şəhərində və Samux rayonunda keçirilən tədbirlər zamanı, ictimai qaydanın qorunması ilə bağlı ərazi polis orqanları ilə birgə xidmət aparılmışdır.

Vətəndaş məmnunluğunun təmin edilməsi, onların müraciətlərinə baxılması və qəbulu işi nəzarətə götürülüb. Ötən il ərzində 627 müraciətə baxılıb və 117 vətəndaş idarə rəisinin qəbulunda olub.

***Çingiz Şıxverdiyev, polis polkovnik-leytenantı***

## VETERANLAR RAZILIQLARINI BİLDİRDİLƏR

**Redaksiyamıza müraciət edən Rafik Behtullayev 1983-cü ildən İmişli, Beyləqan, Biləsuvar Dövlət Yol Polisi şöbələrində xidmət edib. 2000-ci ildə təqaüdə çıxıb. Səhhətilə əlaqədar Hospitala müalicəyə gəlib.**

Ağsaqqal həmkarımıza təsəlli olacağını düşünüb onunla görüşməyə getdim. Palatada bir neçə nəfər idilər. Özümü təqdim etdim. Çox səmimi söhbətimiz başladı.

Onunla bir otaqda müalicə alan Qarabağ veteranı, istefada olan polis mayoru Telman Baxşıyev 1983-cü ildən 2010-cu ilə qədər Nərimanov, Sabunçu, Nəsimi Rayon Polis İdarələrində əməliyyatçı, baş əməliyyatçı vəzifələrində xidmət edib. Torpaqlarımızın müdafiəsi uğrunda döyüşlərdə olub. Firudin Həsənov 1965-ci ildən 1998-ci ilə qədər Binəqədi rayon Milis şöbəsində Yol Patrul Xidmətinin komandiri kimi çalışıb. Asif Məmmədov isə 1973-cü ildən 1998-ci ilədək Nərimanov RPİ-də müstəntiq işləyib...

Onlarla uzun-uzadı söhbət etdim. Keçdikləri həyat yolundan, xidməti fəaliyyətlərindən, Qarabağ döyüşlərindən, vaxtilə idmanda qazandıqları uğurlarından danışdılar.

Bildirdilər ki, bir neçə gündür DİN-nin A.Heydərov adına Respublika Hospitalında Kardiologiya şöbəsində müalicə alırlar. Səh-




hətlərində xeyli irəliləyiş var. Sağlamlıqlarına qovuşmaq üçün tibb personalı əlindən gələni edir. Ağ xalatlı xilaskarların polis veteranları ilə xoş ünsiyyəti, səmimi münasibəti də Hospitalda dərdinə çarə axtaranlara öz müsbət təsirini göstərir.

Sanki sevinclərinə sevinc qatmışdılar. Yenə hər biri göstərilən xidmətdən razılığını ifadə etdi. Deməyə mənim də sözüm çox idi. Yazmağı borc bildim. Əziz veteranlarımız, "Mübariz keşikdə"nin sadiq oxucuları, biz həmişə sizinləyik...

***Ruhiyyə Əliyeva, polis baş leytenantı***

## Vətəndaş-polis həmrəyliyi

**Xətai RPİ 37-ci Polis Şöbəsinin əməkdaşları tərəfindən axtarışda olan şəxs saxlanılıb.**

Belə ki, vətəndaş Elman Musayev "102 Xidməti-Zəng Mərkəzi"nə həmin şəxsi Ali Məhkəmənin qarşısında gördüyü barədə məlumat verib. Dərhal şöbənin əməliyyat qrupu əraziyə gəlib və sözügedən şəxsi yaxalayıb. Bəzi məqamlara aydınlıq gətirdikdən sonra axtarışda olan şəxs aidiyyatı üzrə Sabunçu RPİ-yə təhvil verilib.

Elmanın sərgilədiyi əməl vətəndaş-polis həmrəyliyi ilə yanaşı, əslində, elə ölkə qanunlarına olan münasibətdir. Gəlin, hər birimiz qanun keşikçisi olaq.

***Teymur Əlizadə***

## QONAQLAR "ƏLİDOLU" GƏLMİŞDİLƏR...

Biləsuvar Rayon Polis Şöbəsinin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayonun Arazbarı kəndi ərazisində 2 nəfər İran İslam Respublikası vətəndaşı-Rövşən Nusrəti və Rəsul Modiri saxlanılaraq polis şöbəsinə gətiriliblər. Onların əlində olan qara çantaya baxış keçirilərkən oradan 5 kiloqram 500 qram heroin, 5 kiloqram 300 qram tiryək, 5 kiloqram 600 qram psixatrop maddə olan metamfetamin, 1 ədəd "Makarov" tipli tapança, həmin silaha aid 6 ədəd patron, 1 ədəd qaz balonu və 1 ədəd ov bıçağı aşkar edilərək götürülüb. Həmin



şəxslərin bildirdiyinə görə narkotik vasitələri İran vətəndaşı olan "Əli" adlı şəxsin sifarişi ilə qaçaq yolla Azərbaycan Respublikasının ərazisinə gətiriblər.

## ARADAN 1 AY ÖTMÜŞDÜ...

Ötən il dekabr ayının 26-da Beyləqan rayon sakini E.Qurbanov RPŞ-yə ərizə ilə müraciət edərək ona məxsus xırdabuynuzlu heyvanlarının oğurlandığı barədə məlumat verib.

Faktla bağlı polis əməkdaşları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Sabirabad rayon sakini, əvvəllər məhkum olunmuş Şahlar Dadaşov və Beyləqan rayon sakini Hüseyn Qafarov saxlanılıblar. Araşdırmalarla onların E.Qurbanova məxsus 9 baş, hər biri 130 manat olmaqla ümumilikdə 1170 manat dəyərində olan xırdabuynuzlu heyvanlarını oğurlamaları müəyyən edilib. Dindirilmə zamanı hər iki şəxs ələ keçirdikləri qoyunları dəyərindən ucuz qiymətə satdıqlarını etiraf edib.

Faktla bağlı cinayət işi başlanılıb, araşdırmalar aparılır.

# O QƏHRƏMANLIQ TARİXİMİZİ YAZIR

**"Facebook" sosial şəbəkəsindəki səhifəmizə edilən müraciətlər arasında biri xüsusilə diqqətimizi çəkdi. Vidadi Həsənov adlı izləyicimiz, istefada olan polis əməkdaşı olduğunu, şəhidlərimiz haqqında məlumatlar toplayıb, onları ictimaiyyətə təqdim etdiyini, maraqlı olarsa bizim səhifədə də paylaşa biləcəyini yazmışdı. Əlbəttə, bu təklifə həvəslə razılaşdıq və qısa vaxtda əməkdaşlığımız yarandı. Qiyabi tanış olduq. Bildirdi ki, Naxçıvanda yaşayır, müharibə veteranıdır. Və bu yaxınlarda əyani, necə deyərlər, üzbəsurət tanış olduq və onu oxucularımıza təqdim etmək qərarına gəldik.**



Vidadi Həsənov 1957-ci ildə Naxçıvan MR-nın Şərur rayonunun Kərimbəyli kəndində anadan olub. Ən böyük arzusu da hərbçi olmaq olub. Elə buna görə də hərbi xidmətini başa vurduqdan sonra orada qalıb işləyib. Daxili Qoşunlardakı xidmətlərinə görə mükafatlandırılıb.

Öz arzusu ilə daxili işlər orqanları üçün kadr hazırlayan DİN-nin Ufadakı Xüsusi Təyinatlı Məktəbinə daxil olub və 1983-cü ildə oranı bitirib.

Vətənin dar günündə harayına yetişib. 1990-cı ildə Şərur Rayon Daxili İşlər Şöbəsində xidmətini davam etdirib. Ancaq onun qarşısında iki cəbhə açılmışdı. Torpaqlarımıza təcavüz edən düşmənlə və cinayətkarlıqla mübarizə cəbhələri. Hər ikisindən üzüağ çıxmağı bacarıb. Dəfələrlə həmsərhəd bölgələrdə düşmənin hücuma keçmək cəhdlərinin qarşısının alınması, torpaqlarımızın müdafiəsi uğrunda döyüş əməliyyatlarında iştirak edib. Həmin vaxt ölkədə destabillik yaratmağa çalışan müxalifətin silahlı dəstələrinə qarşı mübarizədə də fərqlənib. Müxtəlif vaxtlarda mühafizə, əməliyyat xidmətlərində çalışıb.

Təqaüdə çıxandan sonra isə şəhidlərimiz haqqında məlumatların toplanıb sistemləşdirilməsi, onların hünər yolu barədə informasiyaların təbliği ilə məşğuldur.

-Azərbaycanımız, müstəqilliyimiz uğrunda minlərlə qeyrətli Vətən övladları canlarından keçiblər. Vətəni bizlərə əmanət veriblər. Torpağı Vətən eləyən şanlı döyüşçülərimizin, mərd, mübariz soydaşlarımızın hünəri gələcək nəsillərə örnək olmalıdır. Onların igidlikləri bizim qəhrəmanlıq tariximizdir. Gələcəkdə neçə-neçə əsərlərin, filmlərin süjetinə çevriləcək şəhidlərimizin xatirəsinə ehtiram olaraq haqlarında materiallar toplayıram, sosial şəbəkələrdə paylaşıram ki, onların xatirəsi daim yad edilsin. Artıq 15 mindən çox şəhidimiz haqqında məlumat toplamışam və məqalə şəklində yayımlanmasına çalışıram. Bu sahədə axtarışlarım davam edir.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

**Atıcılıq qabiliyyətinin gücləndirilməsi, döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi, əməkdaşlarımızın ekstremal vəziyyətlərdə silahın tətbiqi və istifadəsi zamanı sabit vərdişlərə yiyələnməsi məqsədi ilə yanvarın 22-dən 24-dək DİN İdman Cəmiyyətinin təşkilatçılığı ilə atıcılıq üzrə daxili işlər orqanlarının çempionatı keçirilib.**



# ƏMƏKDAŞLARIN SƏRRASTLIĞI YOXLANILIB

Atıcılıq turnirində yarışa 11 komandadan 84 əməkdaş qatılıb.

Şəxsi birincilik üzrə yarışda 1-3 nömrəli tapşırıq üzrə ƏÇPA-nın Xüsusi Təyinatlı 1-ci taborun taqım komandiri, polis kapitanı Tamerlan Bəşirov, 6 nömrəli tapşırıq üzrə BDYPİ-nin 12-ci taqımın YPX inspektoru, polis serjantı Elməddin Əliyev, 1 və 2 nömrəli tapşırıq üzrə qadınlar arasında Polis Akademiyasının III kursun 5-ci taqımın kursantı Aişə Əliyeva və AKM üzrə Polis Akademiyasının Komendant Xidmətinin polis nəfəri, polis serjantı Elvin Həsənov çempion adını qazanıblar. Qeyd edək ki, yarışda Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçuları 761 xalla 1-ci yer, Əlahiddə Çevik Polis Alayının əməkdaşları 760 xalla 2-ci yer və Polis Akademiyasının kursantları 720 xalla 3-cü yerə layiq görülüblər.

Şəxsi birincilik uğrunda yer tutanlara medal və qiymətli hədiyyələr, komanda hesabında yer tutanlara isə kubok təqdim edilib. Yarışı İdman təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Mülayim Xıdırov, polis polkovnik-leytenantları Munir Orucov, Seymur Qurbanbəyov, Mahir Əhmədov, polis mayorları Aydın Həşimov, Dəyanət Ağayev və polis baş leytenantı Elşən İbişov idarə ediblər.

# HƏRƏKƏT TEZ DƏ BƏRPA OLUNDU

Zabrata təzə çatmışdım ki, qarşıda sıxlığın olduğunu gördüm. Nə baş verdiyini öyrənmək üçün maşından düşdüm. Sabunçu rayonu Şəhər şossesinin Balaxanı döngəsi deyilən hissəsində "Mersedes" hərəkətdə olarkən banındakı yük yola dağılmışdı. Avtomobillərin hərəkəti dayanmışdı. Rayon Polis İdarəsi DYPŞ-nin əməkdaşları nəqliyyat vasitələrinin rahat, maneəsiz hərəkətini təmin etmək məqsədilə əraziyə cəlb edildi, hərəkət tez də bərpa olundu. Macal tapıb paqondaşlarımızın xidmətini telefonumun yaddaşına həkk etdim...



Bura gəlişimin səbəbi də Yol Polisi Şöbəsinin Yol Patrul Xidməti əməkdaşlarının fəaliyyəti ilə bağlı idi.

Maştağa qəsəbəsinə anasıgilə gedən Tükəzban Əliyeva xoşagəlməz hadisə ilə üzləşib. Bir həftə əvvəl qonşusu burda maşın saxlayacağı təqdirdə avtomobilə xətər yetirəcəyini deyərək ona hədə-qorxu gəlib. DYPŞ-in Yol Patrul Xidmətinin əməkdaşına yaxınlaşıb və kömək istəyib. Polis baş serjantı Natiq Səmədov müraciətə dərhal reaksiya verərək onunla birgə ünvana yollanıb. Asayiş keşikçisi xanımı təhdid edən şəxsə burada maşının saxlanılmasının qanunauyğun olduğunu izah edərək, onunla profilaktiki söhbət apardıqdan sonra intizama dəvət edib.

**Sabunçu RPİ DYPŞ-in rəisi, polis mayoru Hafiz Məmmədov** əməkdaşlar qarşısında qanunçuluğun təmini, vətəndaş məmnunluğunun başlıca vəzifə olduğunu bu məksədlə bütün müraciətlərə həssaslıqla yanaşıldığını dedi.

*Teymur Əlizadə,*
*polis kapitanı*

# TƏMSİLÇİLƏRİMİZİN NÖVBƏTİ QƏLƏBƏ TÖHFƏSİ...

**Bu yaxınlarda Cüdo üzrə yeniyetmələr arasında Fövqəladə Hallar Nazirliyinin İdman mərkəzində Azərbaycan birinciliyi keçirilib.**

Gərgin mübarizə şəraitində keçən yarışda 550 nəfər idmançı gücünü sınayıb. Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin təmsilçiləri üçün də bu yarış uğurlu olub. Komandamız respublikanın əməkdar məşqçisi, DİN İdman Cəmiyyətinin Cüdo bölməsinin baş məşqçi-müəllimi Zakir Kərimovun rəhbərliyi altında mübarizəyə qatılıb.

İdman Cəmiyyətin yetirməlləri Əli Hacıyev (55 kiloqram) və Nahid İsmaylov (73 kiloqram) bütün rəqiblərinə qalib gələrək, fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Digər idmançılarımızdan 90+ çəki dərəcəsində Rafiq Həsənov və Yalçın Əliağayev yarışın bürünc medalını qazanıblar.

İdmançılarımızla görüşən DİN İdman Cəmiyyətinin sədri, polis polkovniki Zemfira Meftaxetdinova onları əldə etdikləri nəticə ilə bağlı təbrik edib və gələcəkdə daha çox qələbələrə imza atmağı arzulayıb.

*Ruslan Vəliyev,*
*polis leytenantı*

# TARİX SUSMUR, HƏQİQƏTİ DANIŞIR...

İrəvan xanlığının əsası XVIII əsrin ortalarında Mir Mehdi xan tərəfindən qoyulub. Xanlıq Qarabağ, Naxçıvan və Maku xanlıqları, Osmanlı İmperiyası, Kartli-Kaxetiya çarlığı, Borçalı, Qazax sultanlıqları ilə həmsərhəd olub.

XIV əsrin sonunda – Teymurilər dövründə əsası qoyulan İrəvan XVI əsrdə Şah İsmayıl Xətainin hakimiyyəti dövründə (1501-1524) inkişaf edərək şəhərə çevrilib.

İrəvan xanlığının əhalisi bu diyarın ən qədim sakinləri olan azərbaycanlılar idi. Bunu o dövrə aid yer adları, o zaman İrəvanda olmuş Avropa səyyahlarının, hətta erməni tarixçilərinin özlərinin məlumatları sübut edir. Məsələn, erməni tarixçisi A.İoannisyan yazır ki, mənbələrin məlumatlarına görə, XVIII əsrdə ermənilər İrəvanda əhalinin cüzi bir hissəsini, azərbaycanlılar isə böyük əksəriyyətini təşkil edirdi".

Əhalinin cüzi bir hissəsi olan xristianların bu bölgəyə ilk gəlişi 1441-ci ildə erməni katalikosluğunun (Kiçik Asiyada tarixi vilayət) Azərbaycan Qaraqoyunlu dövlətinin ərazisində Üçkilsəyə (Üçmədzin) köçürülməsi ilə bağlı olmuşdu.

Katalikosluğun köçürülməsinə qədər bölgədə ermənilərə məxsus heç bir yaşayış məntəqəsi, torpaq sahəsi olmamışdı. Sonralar erməni katalikosları yerli azərbaycanlıların torpaqlarını müxtəlif yollarla ələ keçirərək öz ərazilərini genişləndirirdilər.

İrəvan xanlığı strateji-coğrafi mövqeyə malik olduğu üçün qonşu dövlətlərin hücumlarına məruz qalırdı. 1779-cu ildə gürcü çarı II İrakli İrəvan xanlığına hücum edərək onun ərazisinin bir hissəsini –Şörəyeli işğal etmişdi.

Polkovnik Ş.Burnaşevin general P.Potyomkinə məktubu:

"İrəvan şəhəri Azərbaycana məxsus olduğundan Osmanlı sultanı onun heç zaman Gürcüstanın tabeliyinə verilməsinə razı olmayacaqdır. Sultan Ərzurum paşasına və digər həmsərhəd paşalara rus qoşunlarına qarşı çıxmağı əmr etmişdir. Qarabağlı İbrahimxəlil xan və digər Azərbaycan xanları İrəvanı gürcülərin işğalından xilas etmək üçün birləşmişlər.

İrəvan xanlığı müxtəlif dövrlərdə Kartli çarından Qarabağ və Xoy xanlıqlarından asılı vəziyyətə düşmüşdü.1783-cü ildə gürcü çarı Rusiyanın himayəsini qəbul etdi. Bundan sonra gürcü çarının İrəvana və digər Azərbaycan torpaqlarına qarşı işğalçılıq siyasəti fəallaşdı.

XVIII əsrin 50-ci illərinin əvvəllərində İrəvan xanlığının vəziyyəti son dərəcə gərginləşir. Onu şimaldan gürcü hərbi qüvvələrinin hücum təhlükəsi, cənubdan isə Urmiya xanı Fətəli xan Əfşarın hücumları narahat edirdi. Digər tərəfdən isə xanlığın ərazisində məskunlaşmış ermənilərin düşmənçilik münasibətləri, onların pozuculuq fəaliyyəti ara vermirdi.

1827-ci il oktyabrın 6-da İrəvan xanlığı ruslar tərəfindən işğal edilir və bu işğal 1828-ci il fevralın 10-da Türkmənçay sülh müqaviləsi ilə möhkəmlənir. Müqavilənin 15-ci bəndinə əsasən İran dövlətində və Osmanlı imperiyasında yaşayan erməni əhalisi Cənubi Qafqaza köçürülür.

İrəvan xanlığının ərazisi strateji əhəmiyyətə malik idi. Osmanlı imperiyasını, Gürcü knyazlıqlarını və İranı təzyiq altında saxlamaq üçün Lazarev, Paskeviç və başqa rus generalları ermənilləri daha çox İrəvan xanlığının ərazisinə köçürtməyə çalışıblar.

Sonralar Naxçıvan və İrəvan xanlıqlarının ərazisində "Erməni vilayəti" yaradılıb və bu proseslər tarixi Azərbaycan torpaqlarında Ermənistan dövlətinin yaranması ilə nəticələnib.

*Aytəkin Nəcəfova*

# Yanvar ayının 22-dən 28-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 191 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 53 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 233, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 2, borclu şəxs qismində axtarışda olan 126 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 8 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 12 nəfər ölmüş, 4 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 118 fakt müəyyən edilmişdir.

Avropa İttifaqının (Aİ) statistika agentliyi - Avrostat 2015-2017-ci illərdə Aİ ölkələrində oğurlanan avtomobillərin sayını açıqlayıb. Bildirilib ki, bu illərdə Aİ məkanında 697 min avtomobil oğurlanıb. Bu, 2008-2010-cu illərlə müqayisədə 29 faiz azdır. Həmin illərdə Aİ ölkələrində oğurlanan avtomobillərin sayı 983 min olub.

Qeyd olunub ki, 2015-2017-ci illərdə ən çox avtomobil oğurluğu Lüksemburqda qeydə alınıb. Bu ölkədə əhalinin hər 100 min nəfəri üzrə 328 oğurluq hadisəsi qeydə alınıb. Bu göstərici üzrə sonrakı iki pillədə Yunanıstan (269) və İtaliya (257) qərarlaşıb. Ən az avtomobil oğurluğu isə Danimarkada qeydə alınıb. Şimali Avropa ölkəsində əhalinin 100 min nəfəri üzrə cəmi 4 avtomobil oğurluğu baş verib.

*****

Dubay polisi şagirdlərin təhlükəsizliyini daha etibarlı təmin etmək məqsədilə məktəb avtobuslarında yeni texnologiyalar tətbiq edilməsini təklif edib. Məktəb avtobuslarında şagirdlərin kimliyini müəyyən edəcək üztanıyan kameralar, məktəblilərin nəqliyyat vasitəsinə giriş-çıxışı barədə sürücünü xəbərdar edəcək siqnalizasiya sistemi quraşdırılacaq.

Bildirilib ki, sürücü panelində avtobusa minən və düşən şagirdlərin sayını göstərəcək monitor da qoyulacaq. Məktəblilərə qarşı törədilən cinayətlərin qarşısının alınmasında süni intellekt texnologiyasından da istifadə edilməsi nəzərdə tutulur.

Sürücülər üçün yeni texnologiyalardan istifadə edilməsi ilə bağlı təlimlər təşkil ediləcək.




Yeni layihə Dubayın Yol-Nəqliyyat Departamenti, Birləşmiş Ərəb Əmirliklərinin Nəqliyyat Nazirliyi, məktəblərin birgə iştirakı ilə həyata keçiriləcək.

*****

1994-cü ildə ordudan qaçan şəxs yol polisinin sənədlərini yoxlaması zamanı üzə çıxıb. Hadisə Diyarbəkirdə baş verib.

58 yaşlı şəxs dərhal nəzarətə götürülüb. Onun özünü ələ verməsi isə maraqlı olub. Belə ki, şübhəli avtomobili saxlayan yol polisi sərnişindən şəxsiyyətini təsdiq edən sənədi istəsə də, sərnişin cavabında sənədinin üstündə olmadığını bildirib. Şəxsdən şübhələnən polis onu avtomobildən yerə düşürüb və o, könüllü şəkildə sənədini polisə təqdim edib. Araşdırmalar nəticəsində məlum olub ki, şübhəli 26 ildir fərarilik həyatı yaşayır və elə o, buna görə sənədini polisə təqdim etmək istəməyib.

*****

Türkiyədə ağlagəlməz üsulla oğurluq hadisəsi həyata keçirmək istəyən şəxslər saxlanılıb. Hadisə İstanbulda qeydə alınıb. Fəhlə geyimində olan bir neçə nəfər ekskavatorla və müxtəlif təchizatlarla gələrək yolları bağlayıblar. Onlar yeraltı naqilləri oğurlamağı planlaşdırıblar. Ancaq polis oğurluq etmək istəyənləri saxlayıb. Yoxlama zamanı onların təqdim etdikləri sənədin saxta olduğu ortaya çıxıb.

*Natiq Cavadov*

MÜBARİZ KEŞİKDƏ

qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

BURAXILIŞA MƏSUL: E.ZAHİDOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.954

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik